***Sevinc RƏHİMOVA*** *

# YAQUT ƏL-HƏMƏVİNİN "MUCƏM ƏL-BULDAN" ƏSƏRİNDƏ DƏRBƏNDİN TARİXİ

**Açar sözlər:** Dərbənd, Yaqut əl-Həməvi, siyasi coğrafiya, şəhər həyatı
**Keywords:** Derbent, Yagut al-Hamawi, political geography, city life.
**Ключевые слова:** Дербент, Ягут аль- Хамави, политическая география, жизнь города.

Azərbaycanın şimal-şərqində yerləşən Dərbənd tarixən ölkədə baş vermiş hadisələrin mərkəzində duran şəhərlərdən biri olmuşdur. Orta əsrlərdə cərəyan etmiş hadisələrin böyük bir qismi həm də bu şəhərlə bağlı olmuşdur. Dərbənd orta əsrlərdə Sasanilərin, Xilafətin, monqol yürüşlərinin, Xarəzmşah Cəlaləddinin, Əmir Teymurun hücumlarının şahidi olmuş, iki monqol ulusu – Hülakilərlə (Elxanilərlə) Qızıl Orda xanları (Cuçilər) arasında uzun müddət davam edən müharibələrin meydanına çevrilmiş, Səfəvi şeyxlərinin də hərbi və siyasi tarixinin şahidi olmuşdur. Dərbəndin Azərbaycan, eləcə də Qafqaz tarixində oynadığı bu rol, ilk növbədə, şəhərin təbii şəraiti, strateji mövqeyi, Qafqaz dağları ilə Xəzər dənizi arasında çox mühüm keçid rolunu oynaması ilə bağlı idi.

Dərbənd öz strateji əhəmiyyəti, zəngin siyasi, iqtisadi və mədəni tarixi ilə orta əsr müəlliflərinin də diqqətini cəlb etmiş, onların əsərlərində özünə layiqli yer tutmuşdur. Orta əsr müəllifləri bölgədə baş vermiş hadisələri, xüsusilə də Dərbənd ilə əlaqədar olan tarixi hadisələri təsvir edərkən, bir siyasi, iqtisadi, inzibati, mədəni mərkəz olaraq bu şəhərin adını dəfələrlə çəkmiş, şəhərin Azərbaycan və Qafqaz tarixində oynadığı rola yüksək qiymət vermişlər. Bu baxımdan, şəhərin tarixinin orta əsr sinxron müəlliflərinin məlumatları əsasında araşdırılması böyük elmi dəyər kəsb edir.

Dərbəndin XII-XV əsrlər tarixi sinxron yazılı mənbələrdə yetərincə öz əksini tapmışdır. Bu mənbələrin işərisində farsdilli mənbələr üstünlük təşkil edir ki, bunun da başlıca səbəbi qeyd olunan yüzilliklərdə ərəbdilli tarixi və coğrafi ədəbiyyatın inkişafındakı tənəzzül, yazılan əsərlərin daha çox kompilyasiya xarakteri daşıması ilə bağlıdır. Ərəbdilli ədəbiyyatdakı

* **Rəhimova Sevinc** - t.ü.f.d., dos.

bu təmayülün əksinə olaraq, fars dilində elmi ədəbiyyat XII, xüsusilə XIII əsrin ortalarından etibarən daha sürətlə yayılır və böyük uğurlar qazanır.

Bununla yanaşı, bu yüzillərdə ərəb ədəbiyyatının da görkəmli nümayəndələri vardır ki, onların arasında XIII əsrin müəllifi Yaqut əl-Həməvi xüsusi yer tutur. Yaqut Əl-Həməvi İslam coğrafiyasının məşhur coğrafiyaçısı və səyyahı olmaqla yanaşı, həm də tarixçi və filoloq da olmuşdur. Onun ən məşhur əsərləri – "Mucəm əl-buldan" və "İrşad əl-ərib ilə mərifət ədib" adlı əsərləridir.

Yaqut əl-Həməvi (1179-1229) "Mucəm əl-buldan" ("Ölkələrin əlifba sırası ilə siyahısı") adlı əsərində Dərbəndin (əsərdə - Bab əl-Əbvabın) təbii-coğrafi və strateji mövqeyi, əhalisinin etnik tərkibi, təsərrüfat həyatı, məhsuldar torpaqlara malik olması və s. barədə ətraflı məlumatlar verir (bax: 96, s.14-15, 18). Əl-Həməvinin məlumatları həm də ona görə etibarlıdır ki, o, bu məlumatları şəxsi müşahidələri əsasında yazmışdır (əl-Həməvi iki dəfə Azərbaycanda olmuşdur).

Dərbənd şəhərinin təbii-coğrafi mövqeyi orta əsr coğrafiyaçılarının və səyyahlarını diqqətini həmişə özünə cəlb etmişdir. XII-XV əsrlərdə yaşamış tarixçilər və coğrafiyaçılar da bu baxımdan istisna təşkil etmirlər. İstər XII-XIII əsrlərin müəllifləri əl-İdrisinin (1100-1165), Əbu Həmid əl-Əndəlusi əl-Qərnatinin (1080-1170), Yaqut əl-Həməvinin (1179-1229), istərsə də sonrakı dövrün müəlliflərinin əsərlərində Dərbənd şəhərinin təbii-coğrafi vəziyyəti barədə orijinal və maraqlı faktlar mövcuddur.

Yaqut əl-Həməvinin Dərbənd və onun təbii mövqeyi barədə məlumatı da maraq doğurur. "Mucəm əl-buldan"da bu şəhərə xüsusi yer ayırmışdır. Onun məlumatı digər müəlliflərin məlumatından əhatəliyi və genişliyi ilə fərqlənir (bax: 7, s.14-15; 3, s.135-143). Dərbənd haqqında məlumatlara müəllifin "Kitab əl-müştərik" əsərində də rast gəlinir. Əl-Həməvi yazır ki, dünyada "əl-Bab" adlı dörd yer mövcuddur. Onlardan biri Hələb tərəfdə məşhur kiçik şəhər, digəri Buxaranın kəndlərindən biridir. Üçüncü əl-Bab Bəhreyn torpağında Həcər yaxınlığında dağ adıdır. Dördüncü əl-Bab isə Şirvan Dərbəndidir (bax: 3, s.186). "Mucəm əl-buldan" əsərində isə şəhər barədə iki yerdə söhbət açılır: onlardan biri "Dərbənd" adlı müxtəsər məqalə, digəri "Bab əl-Əbvab" adlı daha geniş məqalədir (bax: 3, s.78). İkinci məqalədə Şirvan Dərbəndi kimi tanınan Bab əl-Əbvabın divarlarının dənizin içinə kimi uzanması, şəhərin ortasında gəmilər üçün limanın olması və onun girişinin girintili-çıxıntılı və zəncirlənmiş olması, divarların daş və qurğuşundan hörüldüyü barədə məlumat vardır. Dərbəndin Ərdəbildən iki kvadrat mil böyük olduğunu nəzərə çatdıran müəllif şəhərin dağdan vadiyə uzununa çəkilən daş hasarla dövrələndiyini, bu dağda müsəlman malikanələrinə aparıb çıxaran yolların olmadığını da xəbər verir. Dərbənd, müəllifin yazdığına görə, Ənuşirəvan tərəfindən möhkəm özüllər üzərində salınmış böyük və mühüm sərhəd şəhəridir və müxtəlif dillərdə danışan çoxsaylı düşmənlərlə əhatə olunmuşdur. Dərbəndin yaxınlığında "Qur dağı" adlanan böyük bir dağ ucalır və şəhərin müdafiəsində bu dağ mühüm rola malikdir.

Əl-Həməvi yazır ki, Dərbənd müxtəlif ölkələrdən insanların axışıb gəldiyi şəhərdir. Bura şimaldan xəzərlər, Sərir sakinləri, Şindan, Xayran, Kurc, Ruklan, Zirihgiran və Qumuq camaatı axışır, həmçinin, Cürcan, Təbəristan, Deyləm və Cəbəldən də gəlirlər. Burada yaxşı kətan parçalardan paltar hazırlanır, zəfəran yetişdirilir. Bu məlumat Dərbəndin sənət istehsalı və ticarət mərkəzi olaraq Şərqdə məşhur olduğuna dəlalət edir. Əl-Həməvi daha sonra yazır ki, Dərbəndin yanında Məsqat adlanan rustaq yerləşir, sonra Həmaşirə adlanan abad bir rustaq gəlir, onlarla Bab əl-Əbvab arasında Təbəsəran ölkəsi yerləşir, ondan yuxarıda Filan adlı böyük olmayan vilayət yerləşir. Məsqatdan aşağıda isə Şabran şəhəri mövcuddur; Dərbənd İtildən 20 günlük, Səməndərdən 4 günlük, Sərir ölkəsindən 3 günlük məsafədədir; Şəhər Qabq (Qafqaz) dağlarındakı çoxsaylı dərələrin ağzındadır və çoxlu möhkəmləndirilmiş qalalarla əhatə olunmuşdur: Bab-Sul, Bab-Allan, Bab-Şaburan, Bab-Lazika, Bab-Barika, Bab-Samiscan, Bab-Sahib-e Sərir, Bab-Filanşah, Bab-Tarunan, Bab-Tabasaranşah, Bab-İranşah.

Daha sonra Bab əl-Əbvabın Ənuşirəvan tərəfindən tikilməsinin səbəbini açıqlayan əl-Həməvi Dərbəndin şəhər divarlarının tikilmə texnikasından danışaraq, onun hava doldurulmuş tuluqlar üzərinə qoyulmuş iri daşların dənizə tərəf uzadılması yolu ilə tikildiyini yazır. Müəllifin yazdıqlarından məlum olur ki, şəhər divarının eni 300 dirsək idi, müxtəlif yerlərdə dəmir qapılar qoyulmuşdu, mühafizəsi isə cəmi 100 döyüşçüyə həvalə olunmuşdu. Halbuki əvvələr bu işə 100.000 adam cəlb olunurdu. Divarın tikilməsində istifadə olunan daşların ən kiçiyini 50 adam daşıya bilməzdi. Daşlar bir-birinə mismar və qurğuşunla bərkidilmişdi; Dərbənd divarının mühafizəsinə fars döyüşçüləri təyin edilmişdilər. Divarın üstündə 20 atlı

maneəsiz manevr edə bilərdi. Şəhərin Cihad adlı darvazasının üzərində, divarın üstündə 2 daş sütun var ki, bunlardan hər birinin üstündə ağ daşdan düzəldilmiş şir, ondan aşağıda isə dişi şir təsviri qoyulmuşdur. Darvazanın yanında ağzında üzüm salxımı tutan tülkünün ayaqları arasında yerləşdiyi daş insan təsviri vardır. Şəhərin lap yaxınlığında pilləkənləri olan tağlı quyu var. Pilləkənlərin hər iki tərəfində Dərbənd divarlarının da talismanı hesab olunan daşdan iki şir təsviri mövcuddur (bax: 3, s.135-142). Dərbənd şəhəri dağdan vadiyə uzununa çəkilən divarla (hasarla) dövrələnmişdir. Divarın uzunluğu XIII əsrin müəllifi Yaqut əl-Həməviyə görə, 7 fərsəx (təx. 40 km, bax: 3, s. 141), XV əsrin müəllifi Əbdürrəşid əl-Bakuviyə görə, 3 fərsəx (təx. 20 km, bax: 4, s.88) olmuşdur. Dərbənd divarının eni Yaqut əl-Həməviyə görə, 300 dirsək (3, s.140), əl-Bakuviyə görə, bir ox uçuşu məsafəsində olmuşdur (4, s.88). Divarın hündürlüyü dağın zirvəsinə kimi ucalmış, bir ucu dənizin içinə qədər uzadılmışdır. Dərbənd divarının dənizin içindəki qurtaracağından keçmək mümkün olmamışdır;

Yuxarıda qeyd olunanlardan da göründüyü kimi, Yaqut əl-Həməvinin məlumatları müasirlərinin əsərlərində rast gəlinmir və diqqətçəkicidir.

Yaqut əl-Həməvidə Dərbəndin Azərbaycana məxsusluğunu göstərən digər bir məlumat da var: "Şamaxı abad şəhərdir, Şirvanın paytaxtıdır. O, Arran sərhəddində yerləşir və Dərbəndin əyalətlərindən biri hesab olunur. Şamaxı hakimi Şirvanşah Dərbənd hakiminin qardaşıdır" (7, s.27-28).

Qeyd edək ki, Dərbəndin göstərilən dövr tarixi barədə akad. V.V.Bartoldun, Azərbaycan tarixçiləri akad.Ə.Ə.Əlizadənin, akad. Z.M.Bünyadovun və başqa tədqiqatçıların əsərlərində müxtəlif səpgili məlumatlar mövcuddur. V.V.Bartoldun məlumatı daha ümumi xarakter daşıyır (bax: 1, s.70-73). Ə.Ə.Əlizadə isə baş vermiş hadisələrə nisbətən geniş planda yanaşmış və istər mənbələrdə, istərsə də özünə qədərki tarixi ədəbiyyatda nəzərə çarpan müxtəlif mülahizələri, fikirləri, uyğunsuzluqları araşdırmağa cəhd göstərmişdir. Məsələn, müəllif Gəncəli Kirakosun qıpçaqların Gürcüstandan Azərbaycana irəlilədikləri fikrini təkzib edərək, onların məhz Dərbənddən keçib getdiklərini vurğulayır (5, s.102), eyni zamanda, bu hadisələrin şərhində İbn əl-Əsir ilə Kirakosun faktları arasında əsaslı fərqin olmadığını yazır (5, s.102). Akad.Z.M.Bünyadov Dərbənd hakimi, Şirvanşah ər-Rəşidin şəxsiyyəti, mənsubiyyəti barədə fikir aydınlığı gətirməyə çalışır. Şirvanşahların ənənəvi İran mənşəli adları arasında ərəb mənşəli ada malik





ər-Rəşidin ortaya çıxmasını bu dövr üçün anaxronizm kimi qiymətləndirən müəllif bunun anlaşılmazlıq kimi nəzərə çarpdığını bildirir (2, s.149). Bununla belə, o, dövrün geniş məlumatlı müəllifi İbn əl-Əsirin ər-Rəşidi "Şirvanşah və Dərbənd hakimi" kimi tanıtmasını da təsadüfi hesab etmir. Z.M.Bünyadov dövrün digər müəlliflərinin verdiyi faktlara da nəzər yetirir. Yaqut əl-Həməvinin Şamaxı hakiminin Dərbənd hakimi ilə qardaş olması, Şamaxının Dərbəndin mahallarından biri sayılması, ər-Rəşidin qıpçaqların Dərbəndə hücumu zamanı canını "qalanın gizli qapısından çıxaraq Şirvana qaçmaqla qurtarmasını" və s. kimi faktları əsas tutan akademik bunların mümkünlüyünü qəbul edir və səbəbini Dərbəndin həmin dövrdəki təbii-strateji mövqeyində görür. Dərbənd qala kimi düşmənlərin şimaldan Azərbaycan ərazisinə və ümumiyyətlə, Qafqaza yürüşlərinin qarşısını kəsən mühüm istehkam olduğundan onun rolunun daha yüksək qiymətləndirilməsi məntiqi hesab olunmalıdır (2, s.149-150).

Dərbənd ərazisi tarixən münbit, məhsuldar torpaqlara malik olmuşdur. XII-XV əsrlərin mənbələrində Dərbənd torpaqlarının məhsuldarlığı, burada becərilən bitkilər, onların becərilmə texnikası, şoran torpaqların suvarılması və yararlı hala salınması barədə faktlar az deyildir. Xəzərin sahilində yaxşı becərilən torpaqların olduğunu və bu torpaqların Şirvan, Məsqət və Bab əl-Əbvabın (Dərbəndin) ərazilərini də əhatə etdiyini vurğulayan Yaqut əl-Həməvi (7, s. 18) Dərbənddə çoxlu əkin yerlərinin mövcudluğunu yazır, lakin burada meyvə ağaclarının az olduğunu və şəhərə meyvələrin başqa yerlərdən gətirildiyini xəbər yerir (7, s.14). Müəllif sözünü davam etdirərək Dərbənddə və onun mahallarında Azərbaycanın daha başqa heç bir yerində olmayan kətandan və kətan parçalardan da yazır, burada zəfəran bitdiyini, sahilində müxtəlif balıqlar tutulduğunu xəbər verir (7, s.15).

Dövrün ilk mənbələrinin məlumatı Dərbənd şəhəri və ətrafının münbit, məhsuldar torpaqlara malik olmasını göstərməklə yanaşı, burada əksər kənd təsərrüfatı bitkilərinin becərildiyini deməyə imkan verir. Dərbənddə çoxlu əkin sahələrinin olduğunu xəbər verən Yaqut əl-Həməvi yuxarıda da qeyd etdiyimiz kimi, burada kətançığın inkişaf etdiyini, zəfəranin yetişdirildiyini yazır (7, s.15). Əkin yerlərinin suvarılmasında çay sularından və kəhrizlərdən istifadə olunurdu. Mənbənin verdiyi məlumata görə, Dərbəndin özünün lap yaxınlığında pillələri olan tağlı su quyusu

mövcud idi. Həmin pillələrin hər iki tərəfində isə Dərbənd divarlarının da talismanı hesab olunan iki daş şir təsviri varmış (bax: 3, s.142) və yəqin ki, həmin kəhrizdən – quyudan suvarma üçün də istifadə edilirmiş. Dərbənd əhalisi buğda, arpa, qarğıdalı, çəltik ilə yanaşı, müxtəlif bostan bitkiləri becərməklə də məşğul olurdu. Əhali, eyni zamanda, kənd təsərrüfatı məhsullarının emalı ilə də məşğul olurdu. İohann de Qalonifontibusun dərbəndlilərin qozdan yağ çəkmələrində mahir olmaları və həmin yağdan işıqlandırmada da istifadə olunduğu barədə yuxarıda qeyd etdiyimiz məlumatı buna sübutdur (6, s.25).

Dərbənd əhalisinin həyatında kənd təsərrüfatının digər sahəsi maldarlıq da mühüm yer tuturdu. Mənbələrdə "Dərbəndin heyvanlarla bol olduğu" haqqında xəbərlər (bax: 6, s.25) bu sahənin bölgədə geniş inkişaf tapdığını göstərir. Balıqçılıq dəniz sahilində yerləşən Dərbəndin iqtisadiyyatında əsas sahələrdən birini təşkil edirdi. Yaqut əl-Həməvi Dərbənddə "müxtəlif balıqların tutulduğunu" yazır (7, s.15). Dərbənd əhalisi balıq məhsullarından ərzaq kimi istifadə etməklə bərabər, onu emal edir, qurudur, duzlayır və qonşu ölkələrə ixrac edirdi.

Dövrün mənbələrində nəinki Dərbəndin, ümumiyyətlə istənilən müsəlman şəhərinin əhalisinin etnik mənzərəsi təxmini verilir, çünki, bir tərəfdən, bu müəlliflər üçün əhalinin etnik mənsubiyyəti məsələsi müasir tarixçilər üçün olduğu qədər önəmli deyil, digər tərəfdən, yuxarıda da qeyd etdiyimiz kimi, XIII-XV əsrlər artıq Azərbaycan xalqının təşəkkülünün bir neşə əsrdir ki, başa çatdığı dövrdür və mənbələrdə bu mövzuda geniş materialla təmin edilməmişdir. Bununla yanaşı, ilkin mənbələrdəki materialların təhlili Dərbənd əhalisinin etnik baxımdan türk mənşəli olmasına yenə də şübhə doğurmur. Konkret bəzi faktlara müraciət edək:

Yaqut əl-Həməvi yazır: "Bab əl-Əbvab və ya sadəcə Əl-Bab... Bu, iri və mühüm sərhəd şəhərlərindən biridir. Şəhərin yaxınlığında Qurd adı ilə tanınan böyük dağ mövcuddur. Hər il onun üzərinə çoxlu odun toplayırlar ki, lazım gələndə tonqal qalasınlar və Azərbaycan əhalisini düşmənin hücumundan, onlar qəflətən basqın etsələr, xəbərdar etsinlər" (7, s. 14-15). Yaqut əl-Həməvinin bu məlumatı dövrün digər müəllifi – İmadəddin İsmayıl bin Nasir (1273-1331) tərəfindən də təkrarlanır: "Bab əl-Əbvab dəniz kənarında şəhərdir ... [Şəhərin] yaxınlığında yüksələn dağın üstünə hər il odun yığırlar ki, təhlükə baş verəndə yandırsınlar. Bu signal ilə





Azərbaycan əhalisi müdafiəyə hazırlaşır" (bax: 8, s. 40). Məlumdur ki, qədim türk-oğuz adətlərinə görə, tonqal yandırıb əhaliyə təhlükə barədə xəbər vermək Azərbaycanda geniş yayılmışdı və Dərbənddəki Qurd dağında tonqal qalayıb Azərbaycanın digər əhalisinə təhlükə barədə xəbər vermək şəhərin türk əhalisin öz adətlərinə sadiq qalmasından xəbər verir.

İlkin mənbələrin məlumatlarından aydın görünür ki, Dərbənddə erkən və inkişaf etmiş orta əsrlərdə yüksək təhsil sistemi mövcud olmuş və məhz bunun nəticəsidir ki, istər XII əsrdə, istərsə də sonralar şəhərdən çıxmış bir çox görkəmli şəxsiyyətlər – ülәmalar, şeyxlər, ilahiyyatçılar, dövlət xadimləri təkcə Azərbaycanda deyil, Qafqazda və bütün müsəlman Şərqində tanınmışlar. Belə şəxsiyyətlərdən bir qisminin adı (onların hamısının nisbəsi Dərbəndin ərəbcə adı ilə bağlı olaraq əl-Babidir və bu mütəfəkkirlər XII-XIII əsrin əvvəllərində yaşayıb-yaratmışlar) Yaqut əl-Həməvinin əsərində bizə gəlib çatmışdır:

- Əl-Həsən ibn İbrahim əl-Babi ilahiyyatçı alim olmuş, Hümeyd ət-Talibin Məhəmməd peyğəmbərin haqqındakı hədislərini söyləmişdir. Onun haqqında İsa ibn Məhəmməd əl-Bağdadi də məlumat verir (bax: 3, s.215);
- Digər ilahiyyatçı alim Hakim ibn İbrahim ibn Hakim əl-Ləkzi əl-Xunliki əd-Dərbəndi imam Şafeinin tərəfdarı olmuş, müsəlman qanunlarını əl-Ğəzalidən öyrənmiş, çoxlu hədislər dinləmiş, 1144-cü ilə qədər Bağdadda yaşamış və orada vəfat etmişdir (3, s.218);
- İbrahim ibn Cəfər əl-Babi Misirdə yaşamış və burada ilahiyyat elmi ilə məşğul olmuşdur;
- Əbu İmran əl-Babi ləqəbi ilə məşhurlaşan Məhəmməd ibn Hişam ibn əl-Valid ibn Əbdülhəmid Əbulhəsən haqqında Misar ibn Əli əl-Bərdəyi məlumat verir və onu dövrünün görkəmli şəxsiyyəti adlandırır;
- Həbib ibn Fəhd ibn Əbdüləziz Əbülhəsən əl-Babi də dövrünün tanınmış alimlərindən olmuşdur (bax: 3, s.222).

Göründüyü kimi, Yaqut əl-Həməvinin məşhur "Mucəm əl-buldan" əsəri Azərbaycanın orta əsrlərdə ən əhəmiyyətli şəhərlərindən olan Dərbəndin siyasi coğrafiyası, iqtisadi və mədəni həyatı haqqında ən geniş məlumat verən mənbələrdən biridir. Azərbaycanın həm qədim tarixinin, həm orta əsr siyasi, iqtisadi və mədəni həyatının ayrılmaz hissəsi olan Dərbənd isə öz təbii-coğrafi mövqeyinə, siyasi və iqtisadi inkişaf ənənələrinə, bölgənin mədəni yüksəlişində oynadığı roluna görə fenomenal bir şəhərdir və

elə bu səbəbdən, ümumdünya tarixi mirasının da bir hissəsidir. Bu şəhərin elmi tədqiqat obyekti olması, obyektiv, hər cür siyasi qərəzdən və təmayüldən uzaq, sırf elmi şəkildə araşdırılması, düşünürük ki, həm Azərbaycanın dövlətçilik və mədəniyyət tarixinə, həm də dünya elminə xidmət edir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı ölkələrin yeri. Bakı: Elm, 1999, 160 s.
2. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı: Pedaqogika, 2004, 248 s.
3. Əliyeva N. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: Çaşıoğlu, 1999, 246 s.
4. Абд ар-Рашид ал-Бакуви. Китаб талхис ал-асар ва аджа'иб ал-малик ал-каххар. Издание текста, перевод и приложения З.М.Буниятова. М.: Наука, 1971, 162 с.
5. Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. – Баку: Изд.-во АН, 1956, 420 с.
6. Иоанн де Галонифонтибус. Сведения о народах Кавказа (1404). Баку: Элм, 1980, 42 с.
7. Йакут ал-Хамави. Муджам ал-булдан. Хамдаллах Казвини. Нузхат ал-Кулуб. Баку: Элм, 1983, 66 с.
8. Козубский, Е.И. История Дербента. Темирхан-Шура: 1906, 468 с.


## THE HISTORY OF THE CITY OF DERBENT IN THE WORK OF YAGUT AL-HAMAWI "MUCHAM AL-BULDAN"
## SUMMARY


Derbent, in its strategic importance, political, economic and cultural history, attracted the attention of both medieval authors and Arabic speakers. One of these authors is the famous geographer, historian and traveler Yagut al-Hamawi (1179-1229), who lived at the end of the XII and the beginning of the XIII century.

Yagut al-Hamawi in his work "Mucham al-buldan" gave detailed information about the geo-strategic position, the ethnic composition of the population, industrial life, fertile soil, etc. In the work you can also find information about cultural life and famous scientists of the city.






## ИСТОРИЯ ГОРОДА ДЕРБЕНТА В ПРОИЗВЕДЕНИИ ЯГУТА АЛЬ-ХАМАВИ «МУЧАМ АЛЬ-БУЛДАН»
## РЕЗЮМЕ


Дербент своим стратегическим положением, политической, экономической и культурной историей привлекал внимание средневековых, в том числе арабоязычных авторов. Одним из таких авторов являлся живший в конце XII - начале XIII веков известный географ, историк и путешественник Ягут аль-Хамави (1179-1229).

Ягут аль-Хамави в своей работе «Мучам аль-булдан» дал подробную информацию о геостратегическом положении, об этническом составе населения, производственной жизни, плодородной почве и т.д. Дербента. В работе также можно встретить информацию о культурной жизни и известных учёных города.